# Qəbul olunmuş qərarlar insanların sağlamlığının qorunması üçündür

❐ ***Hazırda dünyada COVID–19 infeksiyasına yüksək yoluxma dinamikası müşahidə olunmaqdadır. Bu səbəbdən virusun geniş yayılmasının qarşısının alınması üzrə müvafiq tədbirlər həyata keçirilir, bir çox ölkələr sərt karantin qaydaları tətbiq edir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahdan bildirilib ki, Azərbaycanda virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılır.***



Bununla belə, son günlərdə COVID–19 virusuna yüksək yoluxma dinamikası qeydə alındığından, bəzi qadağaların tətbiq edilməsi ilə bağlı da qərarlar qəbul edilib. Belə ki, sərt karantin rejimi tətbiq edilən Şəki, Lənkəran şəhərləri, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarında bu tədbirlərin müddəti dekabrın 7-dək, Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət dekabrın 28-dək uzadılır.

Koronavirusa yoluxmanın çoxalması səbəbindən bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyəti 21 noyabrdan 28 dekabradək dayandırılır. Bundan başqa, şənbə və bazar günlərinə başqa məhdudiyyətlər də qəbul edilib.

Belə ki, bu həftədən, yəni 21 noyabrdan 28 dekabradək şənbə və bazar günləri həyati əhəmiyyət kəsb edən fəaliyyət növləri, o cümlədən aptek və ərzaq mağazaları istisna olmaqla, digər bütün sahələr üzrə yerində xidmətlər dayandırılır. Eyni zamanda, xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur. Maskalardan istifadə qaydalarına nəzarət rejimi daha da sərtləşdirilir. Xatırladaq ki, müvafiq yerlərdə tibbi maskadan istifadə olunmaması və ya tələb olunan normalara uyğun taxılmaması qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır.

Dünyadakı, o cümlədən Azərbaycandakı mövcud sanitar – epidemioloji vəziyyəti nəzərə alaraq yüksək risk qrupuna daxil olan yaşı 65-dən yuxarı şəxslərin zərurət yaranmadan yaşayış yerlərini tərk etməmələri tövsiyə olunur. Həmçinin özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara da işçilərin say həddinin 30 faizədək azaldılması və digər əməkdaşların məsafədən iş rejiminə keçirilməsi tövsiyə edilir. Nazirlər Kabineti yanında operativ qərargah bütün vətəndaşları COVID–19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə ciddi riayət etməyə, zərurət olmadıqda kənar şəxslərlə təmaslardan yayınmağa, qapalı və açıq məkanlarda sosial məsafəyə əməl etməyə çağırır.

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva operativ qərargahın brifinqində deyib: "Biz ötən müddətdə iki cəbhədə vuruşmuşuq. Mən buna görə tibb işçilərimizə təşəkkür edirəm. Amma təəssüf ki, ölkəmizdə 2000 – dən artıq gündəlik yoluxma müşahidə olunur. Daha əvvəl maksimal rəqəm 600 olurdu, bu gün isə səhiyyə sistemi yüklənir. Ötən müddətdə ölkəmizdə 10 - dan çox modul tipli xəstəxana açıldı, xarici ölkələrdən qısa və uzun müddətli fəaliyyət göstərən tibbi mütəxəssislər gətirildi. Biz müharibədə vuruşan əsgərlərimizə xidmət göstərməyə davam edirik və buna görə də hər iki cəbhədə mübarizə aparırıq. Biz gördük ki, xalqımız istədiyi təqdirdə bir ola bilir. Məhz bu gün koronavirusa görə birlik göstərməyin əsil vaxtı gəlib".

O qeyd edib ki, yoluxma sayının artması nəticəsində xəstəxanalarda xəstələrin yerləşdirilməsi üçün yer sayında azalma müşahidə olunur: "Daha əvvəl gün ərzində maksimal 5 min test aparılırdısa, bu gün onu 13 minə çatdırmışıq. Paralel olaraq dünyasını dəyişən xəstələrimizin də sayı 10-dan 25-ə yüksəlib.

Artıq bütün dünyanın gəldiyi nəticəyə görə, virusla mübarizədə karantindən başqa yol yoxdur. Biz bunu Avropa ölkələrində də gördük, hər birində fərqli sərt karantin tədbirləri görülür. Nəzərə alaraq ki, qarşıdan qış fəsli gəlir, başqa mübarizə yolumuz qalmayıb. Peyvəndin tətbiqinə başlayana qədər biz bu qadağalara qeyd – şərtsiz əməl etməliyik".

Xeyli müddətdir ki, ayrı-ayrı regionlarda lokal sərtləşmələr tətbiq edilir. Lakin bu, istənilən nəticəni vermədiyindən məcburən sərtləşdirmə tədbirlərinə yenidən baxılıb. Yaqut Qarayeva deyib ki, bunun əsas səbəbi vətəndaşların kütləvi toplaşması və maskadan istifadə etməməsidir. Kütləvi toplaşma olan məkanlarda gənclərlə yanaşı, yaşlı insanların da iştirakı xəstə sayının artmasına səbəb olur. Kütləvi toplaşmaq olmaz. Bu gün ciddi şəkildə ailədaxili yoluxmalar artıb. Gənclər ev şəraitində müalicə olunurlarsa, yaşlılar hətta intensiv terapiya şöbəsinə yerləşdirilirlər".

Prezidentin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev operativ qərargahın bu gün keçirilən brifinqində deyib ki, qonşu ölkələrdən Gürcüstan, İran İslam Respublikası, Türkiyə, Rusiyada virusa yoluxma hallarında artım tendensiyası baş verir. Həmçinin ölkəmizdə gündəlik 2000-dən yuxarı yoluxma halları özünü göstərir, ölüm hallarının artması da ciddi narahatlıq doğurur. Ölkəmizin Vətən müharibəsində olduğu, tibb sisteminin diqqətinin bu xüsusa yönəlməsi virusla mübarizədə daha diqqətli olmağımızı tələb edir.

Hələlik peyvənddən istifadə mümkün olmadığından, biz bu qışı əks - epidemik tədbirlərə riayət edərək, qorunmaqla keçirməliyik. Qorunma qaydaları isə sırf gigiyena tələblərinə əməl etmək, maska taxmaq və ara məsafəsi saxlamaqdan ibarətdir. Deyilən tələblərə əməl etmək çox asan.sadə və etibarlıdır. Bir şərtlə ki, ona riayət etmək istəyi olsun. İnsanın özünü qorumaqdan asan heç nə yoxdur. Özünü qorumayanı başqası necə qoruya bilər? Hər kəs anlamalıdır ki, qəbul olunmuş qərarlar məhz insanların sağlamlığının qorunması məqsədilə atılmış zəruri addımlardır. Buna görə də bütün vətəndaşlarımızı operativ qərargahın tələblərinə, qoyulan qaydalara daha ciddi əməl etməyə çağırırıq!

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 20 noyabr.- S.10.